100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 15 (24.501)
25 aprel 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Antalya Diplomatiya Forumu-2026



## Azərbaycanın qlobal siyasətdə artan rolunun növbəti göstəricisi

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və məharətli diplomatiya sayəsində ölkəmiz bu gün dünya dövlətləri arasında regional və beynəlxalq münasibətlər sistemində nüfuzuna və təsir imkanlarına görə seçilən mövqeyə sahibdir. Xüsusilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi qələbə yalnız ərazi bütövlüyümüzün bərpası ilə yekunlaşmayıb, eyni zamanda respublikamızın beynəlxalq arenadakı mövqelərini daha da gücləndirib və ölkəmizə olan etibarı artırıb. Bu baxımdan, son illərdə dövlət başçımızın mötəbər forum və sammitlərə dəvət alması Azərbaycanın qalib dövlət kimi həyata keçirdiyi balanslı və çoxşaxəli xarici siyasətinə beynəlxalq diqqətin və etimadın açıq göstəricisidir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın aprelin 17-19-da keçirilən V Antalya Diplomatiya Forumunda iştirakı da Azərbaycanın yalnız regionda deyil, qlobal miqyasda etibarlı tərəfdaş və təşəbbüskar dövlət kimi qəbul edildiyini bir daha təsdiqləyir.

Səhifə 4

## Bakı dialoqu:

### *Azərbaycan-Latviya strateji tərəfdaşlığında yeni iqtisadi perspektivlər*



*Azərbaycanla Latviya arasında münasibətlər müasir beynəlxalq əməkdaşlığın uğurlu nümunələrindən biri kimi zaman keçdikcə daha sistemli və çoxşaxəli xarakter alır. Hər iki ölkə coğrafi baxımdan fərqli regionlarda yerləşsə də, ortaq maraqlar, qarşılıqlı hörmət və beynəlxalq hüquq prinsiplərinə əsaslanan əməkdaşlıq bu əlaqələrin davamlı inkişafını təmin edir. Xüsusilə dövlət suverenliyi, ərazi bütövlüyü və daxili işlərə qarışmamaq prinsiplərinə qarşılıqlı hörmət münasibətlərin əsas dayaqlarından birinə çevrilib. Bütün bunların timsalında siyasi dialoq yüksək səviyyədə və dinamik xarakter daşıyır. Qarşılıqlı rəsmi səfərlər, beynəlxalq platformalarda fəal əməkdaşlıq və müntəzəm təmaslar iki ölkə arasında etimad mühitini daha da gücləndirir. Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı və digər beynəlxalq platformalar çərçivəsində nümayiş etdirilən qarşılıqlı dəstək isə tərəfdaşlığın qlobal miqyasda da əhəmiyyətini artırır. Bu kontekstdə aprelin 22-də Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana səfəri, səfər çərçivəsində keçirilən görüşlər, aparılan danışıqlar münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm siyasi hadisə kimi dəyərləndirilə bilər.*

Səhifə 5

# Milli mədəniyyətimizin hamisi

**Xalqımız zəngin mədəniyyətə, yüksək mənəvi dəyərlərə sahibdir. Bu dəyərlərin qorunması, illərin sınağından üzüağ çıxması, müxtəlif dönəmlərdə antimilli rejimlərə sinə gərməsi Azərbaycan mədəniyyətinin köklü ənənələrinin, xalqın öz ənənələrinə sahib çıxmaq əzminin göstəricisidir. Mədəniyyətə, mədəniyyətin daşıyıcılarına ən yüksək qiyməti isə Ulu Öndər Heydər Əliyev vermişdir. Onun rəhbərliyi ilə hələ ötən əsrin 70-80-ci illərində mədəni və ədəbi irsimizə, rəssamlıq, heykəltəraşlıq, teatr, musiqi və kino sənətinə qayğı əsaslı şəkildə artmış, bu isə, öz növbəsində, mədəniyyət və incəsənət sahələrinin şaxələnməsinə, bu sahəyə marağın artmasına böyük töhfə ilə nəticələnmişdir.**




***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”.***

**Heydər ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**

Dahi şəxsiyyət yaxşı bilirdi ki, bir xalqın var olması, məxsus olduğu dövlətin dünyada tanıdılmasında əsas sütunlardan biri də mədəniyyətdir, onun adət-ənənələrinin qorunması, gələcək nəsillərə ötürülməsidir. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən Ulu Öndər Azərbaycana rəhbərliyinin bütün dönəmlərində bu sahənin inkişafını diqqətdə saxlamış, bir çox mədəniyyət xadimlərinin yubileylərində özü şəxsən iştirak etmiş, gözəl ənənələrin təşəbbüskarı olmuşdur. Dahi Hüseyn Cavidin nəşinin uzaq Sibirdən doğulduğu Naxçıvan torpağına gətirilməsi isə bir xalqın mənəviyyatına, ədəbi mühitinə, şəxsiyyətinə göstərilən sayğının ən bariz nümunəsi idi. 1956-cı ildə Hüseyn Cavid bəraət aldıqdan sonra onun cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsinə bir neçə dəfə cəhd göstərilsə də, sovet ideologiyasının hökm sürdüyü bir dövrdə bu, olduqca müşkül məsələ idi. 1982-ci ilin oktyabrın 3-də Heydər Əliyev Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı göstəriş verdi. Beləliklə, Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etdi. Böyük çətinliklər bahasına da olsa, həmin il Hüseyn Cavidin nəşi Naxçıvana gətirildi və evinin qarşısında torpağa tapşırıldı. Şairin doğulub boya-başa çatdığı evin muzey kimi fəaliyyətə başlaması da məhz Ulu Öndərin Azərbaycan muzeyşünaslığına, eləcə də görkəmli şəxsiyyətlərin irsinin toplanıb qorunmasına, təbliğinə xidmət edən məsələlər sırasında idi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə 1981-ci il iyul ayının 21-də “Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında” qəbul olunan Qərardan sonra böyük şair və dramaturqun uşaqlıq və gənclik illərini yaşadığı evdə muzeyi yaradılıb. Bu tədbirlərin hər biri, xüsusən də Hüseyn Cavidin onilliklərdən sonra doğma torpağa tapşırılması tarixi hadisə idi.

Yaradıcılığa, quruculuğa, mədəni irsə olduqca böyük önəm verən və qərarlarında prinsipial mövqe göstərən Ulu Öndərin, əslində, hədəfi Azərbaycanın müstəqil gələcəyinə hesablanmışdı. Rəhbərliyi dövründə Azərbaycan hərtərəfli inkişafa nail olmuş, milli dəyərləri, tarixi abidələrin qorunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmişdir. 1981-ci ildə “Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Qərarın qəbul edilməsi Heydər Əliyevin sovet hakimiyyəti dövründə maddi-mədəni irsimizə vətənpərvər yanaşmasını əks etdirən və abidələrimizin tədqiqi və mühafizəsi üçün böyük əhəmiyyət kəsb edən dövlət sənədi idi. Qərarda Azərbaycandakı dini abidələrin, o cümlədən Naxçıvandakı Qarabağlar türbəsinin təmir-bərpa işlərinin vacibliyi qeyd edilmişdir.

Sovet ideologiyasının tüğyan etdiyi bir zamanda mənəvi və milli dəyərləri özündə ehtiva edən abidələri qorumaq, bu məqsədlə əməli işlər görmək cəsarət tələb edirdi. Qərarda həm də abidələrin tədqiqi, aparılan elmi işlərin genişləndirilməsi və bu istiqamətdə təbliğat işlərinin aparılması üçün bütün nəşriyyat orqanlarına, kütləvi informasiya vasitələrinə tarixi abidələrin təbliği ilə bağlı müvafiq işlərin gücləndirilməsi, Azərbaycan və xarici dillərdə nəşrlərin artırılması məsələləri öz əksini tapmışdır. Belə bir dövrdə Ulu Öndər bütün maneələrə sinə gərərək əsl rəhbər və vətəndaşlıq mövqeyi nümayiş etdirmiş, abidələrin qorunması istiqamətində səylərini artırmışdır. Digər şəhərlərlə yanaşı, Naxçıvanın da tarixi-memarlıq irsinin mühafizəsini daim diqqətdə saxlayan Ulu Öndər 1999-cu ildə Möminə xatun məqbərəsini ziyarət edərkən demişdir: ***“Məni incidən odur ki, bizim xalqımız öz zəngin tarixini, zəngin mədəniyyətini, zəngin tarixi köklərini keçən əsrlərdə də, ondan sonrakı dövrdə də, indi XX əsrdə də birincisi öz xalqına göstərə bilməyib, ikincisi də dünyaya göstərə bilməyib. Dağılanlar dağılıb, amma qalanlar içərisində Möminə xatun məqbərəsi XII əsrdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu göstərir. Ancaq bu abidənin memarlıq qiyməti ilə bərabər daha böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu göstərir”.***

Ölkəmizdə muzeyşünaslığın inkişafı birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-80-ci illərində onun rəhbərliyi ilə Azərbaycanda muzey şəbəkəsi genişləndirilmiş, tarix və ədəbiyyat profilli muzeylər, həmçinin görkəmli şəxsiyyətlərin xatirəsinin əbədiləşdirilməsi və təbliği məqsədilə zəngin ekspozisiyalara malik xatirə və ev-muzeyləri yaradılmışdır. Belə ki, 1981-ci ildə Ulu Öndərin təşəbbüsü ilə milli hərb tariximizin görkəmli nümayəndəsi Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illiyi ilə əlaqədar Naxçıvanda ev-muzeyi yaradılmışdır. Bununla belə M.S.Ordubadi,Yusif Məmmədəliyev, C.Məmmədquluzadə kimi görkəmli şəxsiyyətlərin ev-muzeylərinin fəaliyyətə başlaması, Şərur, Babək, Şahbuz, Culfa, Ordubad rayonlarında tarix-diyarşünaslıq muzeylərinin yaradılması da həmin dövrə təsadüf edir. Ulu Öndərin rəhbərliyi ilə muzeylərin sayı ölkə üzrə 29-dan 111-ə yüksəlmişdir. 1974-cü ildə Naxçıvan MSSR-in 50 illik yubileyinin keçirildiyi günlərdə dahi şəxsiyyət Ədəbiyyat Muzeyini ziyarət etmiş, muzey quruculuğunun mədəniyyətimizin, ədəbiyyatımızın, tariximizin təbliğində və tanıdılmasında mühüm rolunu bir daha önə çəkmişdir.

Ümummilli Lider Heydər Əliyev 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illik yubileyi ilə əlaqədar doğma diyara səfər etmiş, yazıçı və dramaturq Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev-muzeyinin açılışı mərasimində iştirak etmişdir. Həmçinin Heydər Əliyev Muzeyində, Naxçıvan Dövlət Xalça Muzeyində, Hüseyn Cavidin məqbərəsində və ev-muzeyində olmuş, 2002-ci ildə Naxçıvana növbəti səfəri zamanı Bəhruz Kəngərli Muzeyinin açılışında iştirak etmişdir. O, Kəngərlinin əsərlərini Azərbaycan mədəniyyətinin incisi adlandırmış, muzeyin yaradılmasını sənətə verilən dəyər kimi qiymətləndirmişdir.

90-cı illərdə mövcud vəziyyətlə əlaqədar yaşanan durğunluq mədəniyyət sahəsinə də təsirsiz ötüşməmişdi. Xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər öz tarixi xilaskarlıq missiyasını inamla, qətiyyətlə həyata keçirdi. Gələcək inkişafın əsasını qoyan böyük iqtisadi layihələrlə yanaşı, digər sahələrdə də canlanma müşahidə edildi. Xüsusilə mədəniyyət sahəsində qəbul edilən qərarlar, Dövlət proqramları, Azərbaycan mədəniyyətinin beynəlxalq təşkilatlarda təmsil olunması, UNESCO və ISESCO ilə əlaqələrin qurulması milli mədəniyyətimizin dünyaya açılan pəncərəsi oldu. Sənətə, sənətkara qiymət verildi. Görkəmli mədəniyyət xadimləri fəxri adlara, Prezident təqaüdünə, müxtəlif mükafatlara layiq görüldü.

Müstəqil Azərbaycanın memarı olan və bu yolda ömrünü şam kimi əridən dahi rəhbər ölkənin gələcəyini etibarlı əllərə əmanət etdi. İllərlə qurulanlar, yaradılanlar qorunmalı, xalqın müqəddəratı, gələcəyi aydın və işıqlı olmalı idi. Ulu Öndərin yolunu əzm və inamla davam etdirən ölkə başçısı İlham Əliyevin Azərbaycan dövlətinin dayaqlarının möhkəmlənməsi, sülhün, sabitliyin qorunması yolundakı səyləri ictimai həyatın bütün sahələrinin, o cümlədən mədəniyyətin inkişafında yeni səhifə açdı. Dahi rəhbərin mədəniyyət sahəsində başladığı islahatları uğurla davam etdirərək milli mədəniyyətimizin qorunması, təbliği istiqamətində daha böyük nailiyyətlərə imza atdı. Son illər keçirilən musiqi festivalları, yüksək səviyyəli mədəni tədbirlər, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günləri və digər tədbirlər bu sahəyə olan dövlət qayğısının bariz nümunələridir.

Ölkə başçısının diqqət və qayğısı ilə xalqımızın qədim və zəngin mədəniyyəti ölkəmizdən çox-çox uzaqlarda uğurla təbliğ olunur. Bu xüsusda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri sayəsində zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrimiz dünyada tanıdılıb. Azərbaycan muğam sənəti ilk olaraq UNESCO tərəfindən bəşəriyyətin mədəni irs xəzinəsinə daxil edilib. Eləcə də tarixin dərin qatlarından süzülüb gələn neçə-neçə irs nümunələrimiz, o cümlədən “Yallı (Köçəri, Tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri” təşkilatın müvafiq siyahılarına salınaraq bəşəri status qazanıb. Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2024-cü il fevralın 21-də “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. 2026-cı ildə qədim Ordubad şəhəri ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib.

Ölkə başçısının Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Sərəncamı, 2026-cı ilin martın 16-da “Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında” Sərəncamı milli mədəniyyətimizin, tarixi irsimizin, memarlıq abidələrimizin qorunub saxlanılmasına qayğının bariz nümunəsidir.

Ölkə başçısının 2026-cı il 14 yanvar tarixli “Azərbaycan mədəniyyəti-2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında Sərəncamı ölkəmizin mədəni inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Konsepsiya qlobal və daxili çağırışlar nəzərə alınmaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin formalaşdırılması, inkişaf etdirilməsi və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədi daşıyan strateji planlaşdırma sənədidir.

Bu gün həyata keçirilən məqsədyönlü, davamlı mədəniyyət siyasətimiz Azərbaycanı dünya arenasına çıxarır və ölkəmizin dünyaya mədəni inteqrasiya prosesi uğurla davam edir. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən Ulu Öndər Heydər Əliyevin də dediyi kimi: ***“Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz”.***

**Ruhiyyə RƏSULOVA**

# İnsanlara şəfa bəxş edən nurlu həkim

İnsan dünyaya bir dəfə gəlir. Gəlir ki, şərəfli və dəyərli bir ömür yaşasın. Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, xalqa sədaqətli xidməti ilə yaddaşlarda qalsın. Bələlərinin yaşadıqları bitib-tükənmir, əməlləri, xeyirxah işləri daim anılır. Tarix məhz bu cür insanların sayəsində yaranır, onların həyat yolu gələcək nəsillərə örnək, nümunə olur. Azərbaycanın görkəmli oftalmoloq-alimi, akademik Zərifə xanım Əliyeva məhz belə bir ömür yaşamışdır. Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Taleyin hökmü ilə uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə xanım Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır.

Zəngin və davamlı maarifçi ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Mənim anamın həyat fəlsəfəsinin köklərini, hər şeydən əvvəl, onun uşaqlığında axtarmaq lazımdır. O bizə tez-tez deyərdi ki, uşaqlıq – insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı".***

Akademik Zərifə xanım Əliyeva 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Ali təhsil almaq məqamında Zərifə xanım Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyinin ixtisas kimi qəbul olunması onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdir. Tələbəlik həyatının ilk günlərindən özünəməxsus fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı, insanpərvərliyi və vətənpərvərliyi ilə tələbələr arasında hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdir.

Tələbəlik illərində fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik, incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır. Zərifə xanım Əliyeva həm həkimliyin, həm alimliyin, həm də pedaqoqluğun ali zirvəsinə yüksəlmişdir. Zərifə xanım Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətində idi. Zərifə xanım yüksək əxlaqa malik bir insan idi. O, xəstələri yalnız işdə deyil, hər yerdə qəbul edir, onlara məsləhətlər verir, heç kimi köməksiz qoymur, heç kimi ümidsiz qaytarmırdı. O, "Yüksək əqidə" adlı əsərində həkimliyin əsl mahiyyətini belə açmışdır: *"Vicdan bizim əsas hakimimizdir. Vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır".*



Zərifə xanım Əliyeva bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır. Onun zəngin pedaqoji və elmi təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir. Görkəmli alimi həkim etikası və tibbi deontologiya məsələləri həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmiş, bu mövzuda yazdığı "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir. Səhiyyədə kadr hazırlığına və həkimlərin ixtisasının təkmilləşdirilməsinə gərgin əmək sərf edən Zərifə xanımın birbaşa rəhbərliyi altında cavan alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Böyük xidmətlərinə, çoxillik səmərəli elmi-tədqiqat işlərinə görə Zərifə xanım keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqlar Elmi Cəmiyyətinin İdarə Heyətinin "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü seçilmiş, bir sıra orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi kimi yüksək fəxri ada layiq görülmüşdür.

1977-ci ildə Bakıda professor Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi, dünya şöhrətli alim Zərifə xanım Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, geniş vüsət alır, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, yüksək səviyyəli mədəni irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Zərifə xanım insanları çox sevirdi. Peşəsində qazandığı uğurlar da bu xüsusiyyəti ilə bağlı idi. Bütün yaradıcılığında yüksək vətənpərvərlik hissi özünü büruzə verir, bu xüsusiyyət ətrafındakılara münasibətində də aydın görünürdü. Dahi şəxsiyyət Heydər Əliyev deyirdi: ***"Deyirlər, xoşbəxtlik nisbi anlayışdır və dünyada tam xoşbəxt olan insan yoxdur. Amma Tanrı tərəfindən seçilmiş elə şəxslər də var ki, sağlığında insanların rəğbətini, sevgisini qazanan, bu dünyayla vidalaşandan sonra isə tarixdə özünə əbədi şərəfli ad qoyan xoşbəxt insanlardan olur. Elə O da öz adını tarixin səhifələrində əbədiləşdirən, xatirələrdə hər zaman hörmətlə anılan, sayğı ilə yada salınan unudulmaz şəxsiyyətlərdən oldu. Çünki böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs, ilk növbədə, özündə ümid, təsəlli, inam, sakitlik tapar, könülləri xeyirxahlıq şəfəqinin şöləsi ilə işıqlanardı. O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi".***

Akademik oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsindəki əvəzsiz xidmətlərinə görə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Görkəmli alimin adının əbədiləşdirilməsi üçün məzarı üstündə abidəsi ucaldılmış və Bakıdakı Göz Xəstəlikləri İnstitutuna Zərifə xanımın adı verilmişdir. Naxçıvan Muxtar Respublikasında da böyük alimin adı əbədiləşdirilmiş, Naxçıvan Şəhər Poliklinikasına və Naxçıvan şəhərindəki küçələrdən birinə Zərifə xanımın adı verilmişdir. Alimin doğulduğu Şahtaxtı kəndində fəaliyyət göstərən məktəb də onun adını daşıyır. Həmçinin məktəbdə alimin şərəfinə Xatirə muzeyi yaradılmışdır.

Zərifə xanım ömrünün mənasını elmi axtarışlarında və xalqına xidmətdə görürdü. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə olacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır. Akademik Zərifə xanım Əliyeva yazıb-yaratdığı dəyərli əsərləri, qoyub getdiyi elmi nailiyyətləri ilə birgə ideal bir həkim, alim və insan kimi daim xatirələrdə yaşayır.

**Ləman İBRAHİMOVA**
***Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi***

# Kamillik və müdriklik məktəbi

**Görkəmli elm xadimi, akademik Zərifə xanım Əliyevanın tibb elminin inkişafındakı xidmətləri bu gün əsl nümunədir. Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, görkəmli ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq kimi Zərifə xanımın həyat fəlsəfəsi, mənəvi dünyası və elmi fəaliyyəti zəngin və çoxcəhətlidir. Alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.**

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsər, 10 monoqrafiya, 12 səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifidir. Onun daha bir xidməti yüksəkixtisaslı tibb kadrları yetişdirməsidir. Zərifə xanımın rəhbərliyi və qayğısı ilə həmin illərdə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişib. Azərbaycan oftalmologiya elmini dünyada tanıdan Zərifə xanım Əliyevanın açdığı yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir.

Qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı, işini mükəmməl bilən, nursuz gözlərə işıq paylayan, insanlara həyat eşqini qaytaran Zərifə xanım Əliyeva. İlin gözəl fəslində, 1923-cü il aprelin 28-də dünyaya gələn, 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşan, qayğıkeş həkim Zərifə xanım Əliyeva ömür salnaməsinə gözəl əməllərdən başqa heç nə yazılmayan şəfqətli əllər sahibi olmaqla kamil, xeyirxah insan kimi də hamının hörmətini qazananlardan idi. Bu keyfiyyətləri şəxsiyyətində birləşdirən Zərifə xanım kamillik nümunəsi idi. Zərifə xanım Əliyeva uşaq evlərində tərbiyə alan kimsəsiz uşaqlar arasında yayılan traxoma xəstəliyinin qarşısını almaqda xüsusi xidmət göstərib. Akademik Zərifə xanım Əliyevanın keçdiyi şərəfli və parlaq ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim, hər bir həkim üçün həyat və mənəviyyat məktəbidir.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xəti olan novator bir alim idi. Azərbaycan tibb elminin yeni nəsil həkimləri alimin elmi irsindən və təcrübələrindən yararlanaraq daha böyük nailiyyətlərə doğru inamla addımlayırlar. O özündə Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirirdi. Təsadüfi deyil ki, Moskva oftalmoloji məktəbi Zərifə xanımı *"oftalmologiyanın mirvarisi"* adlandırırdı. Dünyaşöhrətli oftalmoloq, akademik A.Nesterov vaxtilə deyirdi ki: *"Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada O, bir nömrəli idi".*

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər salarkən bu gözəl insanın nəcib və xeyirxah şəxsiyyət olması faktı bir daha təsdiqini tapır. Bəli, göz həkimi olan Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdir. Bu ömrün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət olmuş, işığını itirmiş gözlərə nur vermək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. Akademik Zərifə xanım Əliyeva yazıb-yaratdığı dəyərli əsərləri, qoyub getdiyi elmi nailiyyətləri ilə birgə ideal bir həkim, alim və insan kimi xatirələrdə daim yaşayacaqdır. Həyatda şərəfli bir ömür yaşayan, Vətənə, torpağa məhəbbəti, sədaqəti, xalqa xidməti ilə yaddaşlarda qalan insanların əməlləri, xeyirxah işləri daim anılır. Bu həyatda yalnız yaxşılığın əbədi olduğu və bunu həyat amalına çevirən Zərifə xanım Əliyeva kimi. Prezident İlham Əliyev anası, dəyərli ziyalımız, akademik Zərifə xanım Əliyeva haqqında demişdir: ***"Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O həmişə mənim qəlbimdədir".***

**Şəhla ƏHMƏDOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

# Antalya Diplomatiya Forumu-2026

## Azərbaycanın qlobal siyasətdə artan rolunun növbəti göstəricisi



**Antalya Diplomatiya Forumu son illərdə beynəlxalq münasibətlər sistemində mühüm platformalardan birinə çevrilib. Türkiyənin Antalya şəhərində keçirilən bu mötəbər tədbir qlobal çağırışların müzakirəsi, siyasi dialoqun inkişafı və yeni əməkdaşlıq formatlarının formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Builki foruma 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla, 50-dən artıq nazir, eləcə də 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla, ümumilikdə, 500-dən çox yüksək səviyyəli şəxs qatılıb. Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsində, Türkiyənin Xarici İşlər Nazirliyinin ev sahibliyi ilə reallaşan beşinci forumun mövzusu – "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.**

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunub. Üç gün davam edən forumda qlobal qeyri-müəyyənliklər və regional proseslər müxtəlif panel iclaslar, interaktiv sessiyalar və ikitərəfli görüşlərlə ətraflı müzakirə edilib. Builki tədbirdə Cənubi Qafqazdakı son vəziyyət də müzakirə ediləcək mövzular arasında yer alıb.

ADF 2026-da dövlət rəsmiləri ilə yanaşı, akademiklər, iş dünyasının mütəxəssisləri, media və vətəndaş cəmiyyəti nümayəndələri bir araya gətirilərək qeyri-müəyyənliklərin ən yaxşı şəkildə idarə olunması, qlobal problemlərin həlli və gələcək çağırışlara hazırlıq yolları araşdırılıb, mümkün həll yolları barədə fikir mübadiləsi aparılıb və ən yaxşı təcrübə nümunələri paylaşılıb. Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiya keçirilib. Belə bir nüfuzlu platformada Azərbaycanın fəal iştirakı ölkənin qlobal siyasətdə artan rolunun göstəricisidir. Məlum olduğu üzrə müasir dövrdə Azərbaycan balanslaşdırılmış və çoxşaxəli xarici siyasət kursu ilə seçilir. Bu siyasətin əsas məqsədi milli maraqların qorunması ilə yanaşı, regionda sabitliyin və əməkdaşlığın təşviqidir. Məhz bu baxımdan, Antalya Diplomatiya Forumu həmin baxışların beynəlxalq ictimaiyyətə çatdırılması üçün əlverişli imkan yaradır. Xüsusilə postmüharibə dövründə Qarabağda aparılan bərpa və yenidənqurma işləri, sülh prosesi, yeni nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması Azərbaycanın gündəliyində əsas yerlərdən birini tutur. Forum çərçivəsində bu istiqamətdə görülən işlərin təqdim olunması beynəlxalq ictimaiyyətin diqqətini regionda yaranan yeni reallıqlara yönəldə bilər.

Forumun Türkiyədə keçirilməsi Azərbaycan üçün əlavə strateji üstünlüklər yaradır. İki ölkə arasında mövcud olan müttəfiqlik münasibətləri bu beynəlxalq platforma sayəsində daha da möhkəmlənir. Azərbaycan və Türkiyə regional və qlobal məsələlərdə oxşar mövqedən çıxış edərək bir-birini dəstəkləyir və ortaq təşəbbüslərlə çıxış edirlər. Bütün bunlar göstərir ki, Antalya Diplomatiya Forumu Azərbaycan üçün yalnız iştirak edilən tədbir deyil, həm də ölkənin qlobal siyasətdə sözünü demək, milli maraqlarını müdafiə etmək və beynəlxalq əməkdaşlığı genişləndirmək üçün mühüm tribuna rolunu oynayır. Azərbaycanın bu platformadakı fəallığı onun gələcəkdə də beynəlxalq münasibətlər sistemində təsir imkanlarını artıracağını deməyə əsas verir.

Azərbaycan üçün ötən il olduğu kimi, builki Antalya Diplomatiya Forumu da yalnız çıxışlar və panel müzakirələri ilə məhdudlaşmayaraq, yüksək səviyyəli ikitərəfli görüşlər və çoxtərəfli təmaslarla yadda qalıb. Tədbir çərçivəsində Prezident İlham Əliyev Türkiyə, Şimali Kipr, Moldova liderləri, Suriyanın keçid dövrü Prezidenti, Pakistanın Baş naziri ilə görüşlər keçirib. Bu görüşlər zamanı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti geniş şəkildə təhlil olunub, mövcud əməkdaşlıq mexanizmlərinin daha da təkmilləşdirilməsi və yeni istiqamətlərin müəyyənləşdirilməsi məsələləri diqqət mərkəzində saxlanılıb. Danışıqlarda qarşılıqlı maraqdoğuran siyasi, iqtisadi və humanitar məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat dəhlizlərinin inkişafı, regional əlaqələrin genişləndirilməsi və investisiya imkanlarının artırılması kimi strateji sahələrdə əməkdaşlığın dərinləşdirilməsi əsas prioritet kimi vurğulanıb. Bununla yanaşı, tərəflər beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin gücləndirilməsinin vacibliyini də qeyd ediblər.

Prezident İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşündə Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulanıb. Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə, ümumilikdə, bu ölkənin inkişafında önəmi qeyd olunub. Bu məqamda xatırlatmaq yerinə düşər ki, 2025-ci ilin avqustundan başlayaraq respublikamız təbii qaz ixracını yeni istiqamət üzrə genişləndirərək Suriya ilə əməkdaşlıqda da mühüm addım atıb. Təbii qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homs kimi böyük şəhərlərdə yerləşən elektrik stansiyalarına çatdırılır və burada elektrik enerjisi istehsalında istifadə olunur, bununla da Suriyada enerji təminatının bərpasına töhfə verilir.

Forum çərçivəsində keçirilən bu görüşlər bir daha göstərir ki, Azərbaycan qlobal diplomatiya platformalarında fəal iştirak edərək beynəlxalq tərəfdaşları ilə əlaqələrini davamlı şəkildə genişləndirir və qarşılıqlı faydalı əməkdaşlıq modelini təşviq edir. Bu isə ölkənin həm regionda, həm də beynəlxalq müstəvidə artan nüfuzunun və etibarlı tərəfdaş imicinin bariz göstəricisidir.

2021-ci ildən etibarən artıq beşinci dəfə təşkil olunan Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər və panel müzakirələri göstərir ki, bu platformanın əsas məqsədi dünyada baş verən böhranlara dair yeni yanaşmalar irəli sürmək və diplomatik həll yollarına töhfə verməkdir. Azərbaycanın bu beynəlxalq tədbirdə yüksək səviyyədə təmsil olunması və ölkəmizin maraqlarına uyğun müzakirə masalarının təşkili, qalib dövlət kimi artan qlobal nüfuzumuzun bariz göstəricisidir. Ümumilikdə, forum beynəlxalq ictimaiyyəti narahat edən mühüm məsələlərin müzakirəsi, yeni ideyaların formalaşdırılması və qlobal çağırışlara aydınlıq gətirilməsi baxımından əhəmiyyətli bir platforma olduğunu bir daha ortaya qoyur və özünün birləşdirici rolunu nümayiş etdirir.

**"Şərq qapısı"**



# Bakı dialoqu:



## Azərbaycan-Latviya strateji tərəfdaşlığında yeni iqtisadi perspektivlər

### Bakı-Riqa xəttində yeni imkanlar və əməkdaşlıq perspektivləri

(əvvəli 1-ci səhifədə)

Siyasi münasibətlərin tarixi baxımdan Latviya Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 8-də tanıyıb, 1994-cü il yanvarın 11-də isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. 2005-ci ildə Azərbaycanın Latviyada, bir il sonra isə Latviyanın Azərbaycanda səfirliklərinin açılması münasibətlərin institusional əsaslarını möhkəmləndirib. 2017-ci ildə Azərbaycan Prezidentinin Latviyaya rəsmi səfəri zamanı imzalanmış “Strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə” isə əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Aprelin 22-də Prezident İlham Əliyev Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatı zamanı da ilk olaraq məhz Birgə Bəyannaməyə diqqəti çəkməsi tərəflər arasında mövcud etimad və inamdan xəbər verir: ***“Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamə, həmçinin hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq”.***

Bu gün Azərbaycan-Latviya iqtisadi əməkdaşlığı yüksələn xətlə inkişaf edir. Ticarət dövriyyəsinin artırılması, nəqliyyat-logistika marşrutlarının genişləndirilməsi, xüsusilə Şərq-Qərb Nəqliyyat Dəhlizi çərçivəsində əməkdaşlıq imkanlarının reallaşdırılması prioritet istiqamətlərdəndir. Enerji sahəsində, o cümlədən alternativ və bərpa olunan enerji üzrə təcrübə mübadiləsi, həmçinin kənd təsərrüfatı, qida təhlükəsizliyi və texnologiyalar sahəsində əməkdaşlıq potensialı genişdir. Bu istiqamətlərdə atılan addımlar iqtisadi əlaqələrin daha da şaxələndirilməsinə xidmət edir. Təqdirədici haldır ki, iki ölkə arasında əməkdaşlıq təkcə siyasi və iqtisadi sahələrlə məhdudlaşmır. Təhsil, mədəniyyət, turizm və humanitar sahələrdə də qarşılıqlı əlaqələr inkişaf edir. Tələbə mübadiləsi proqramları, mədəni tədbirlər və turizm axınının artması xalqlar arasında qarşılıqlı anlaşmanı daha da gücləndirir. Təbii ki, bu uzunmüddətli tərəfdaşlıq üçün möhkəm sosial baza formalaşdırır. Aprelin 22-də Prezident İlham Əliyev Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçslə mətbuata bəyanatında da bu məsələlərə xüsusi toxundu, Latviyada 450-dən artıq azərbaycanlı tələbənin təhsil aldığını vurğuladı. Sitat: ***“Təbii ki, insanlar arasında təmaslar və təhsil sahəsi də var. Şadıq ki, Latviyada 450-dən artıq azərbaycanlı tələbə təhsil alır və əminəm ki, onların hamısı gözəl ölkənizdə olmaqdan məmnundur. Çoxsaylı səfərlərim yadıma düşür və Sizi ölkənizin inkişafında əldə olunmuş bütün nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm”.***

Latviya liderinin səfəri çərçivəsində aparılan danışıqlar və imzalanan sənədlər siyasi dialoqun daha da dərinləşdirilməsinə, qarşılıqlı etimadın möhkəmlənməsinə və əməkdaşlığın yeni istiqamətlər üzrə genişlənməsinə zəmin yaradacaq. Eyni zamanda bu səfər Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına əlavə dinamika verən mühüm amil kimi çıxış edə bilər. İmzalanmış sənədlər əməkdaşlığın təhlükəsizlik, hüquq-mühafizə, sərhəd xidməti, konsulluq, kənd təsərrüfatı və digər mühüm sahələri əhatə etdiyini göstərir. Birgə Bəyanat isə iki ölkə arasında əlaqələrin strateji mahiyyət daşıdığını bir daha təsdiqləyərək siyasi dəstəyin yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə keçirilən Azərbaycan-Latviya biznes-forumu iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoyur. Forum çərçivəsində səsləndirilən fikirlər və aparılan müzakirələr göstərir ki, Bakı ilə Riqa arasında əməkdaşlıq artıq təkcə siyasi müstəvidə deyil, həm də real iqtisadi layihələr üzərində qurulmağa başlayır.

### İki ölkə əməkdaşlığı yeni regional iqtisadi imkanlar açır

Forumda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərdən yola çıxaraq, demək olar ki, son illərdə Azərbaycan iqtisadiyyatında həyata keçirilən şaxələndirmə siyasəti ölkənin investisiya cəlbediciliyini əhəmiyyətli dərəcədə artırıb. Qeyri-neft sektorunun ÜDM-də payının sürətlə yüksəlməsi və iqtisadi artımın dayanıqlı xarakter alması xarici investorlar üçün etibarlı mühit formalaşdırır. Bu kontekstdə Latviya iş adamlarının Azərbaycana artan marağı təsadüfi deyil. Eyni zamanda Azərbaycanın maliyyə sabitliyi və aşağı xarici borc göstəriciləri ölkənin iqtisadi dayanıqlığını daha da gücləndirir. Strateji valyuta ehtiyatlarının yüksək olması və borclanma siyasətinin ehtiyatla idarə olunması investorlar üçün risklərin minimum səviyyədə olduğunu göstərir. Bu isə uzunmüddətli əməkdaşlıq üçün mühüm amillərdən biridir.

Forumda vurğulanan enerji sahəsində əməkdaşlıq Azərbaycan-Latviya münasibətlərində xüsusi yer tutur. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan etibarlı tərəfdaş kimi tanınır. Bu gün ölkəmiz, ümumilikdə, 16 ölkəyə təbii qaz ixrac edir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Təsadüfi deyil ki, Aİ Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Təbii qaz ixracının genişlənməsi ilə yanaşı, bərpa olunan enerji sahəsində həyata keçirilən layihələr ölkəmizin enerji strategiyasını daha da şaxələndirir. Xüsusilə günəş və külək enerjisi potensialının inkişafı gələcək əməkdaşlıq üçün yeni istiqamətlər müəyyənləşdirir. Bununla yanaşı, Azərbaycanın beynəlxalq nəqliyyat qovşağına çevrilməsi istiqamətində atdığı addımlar da diqqət çəkir. Şərq-Qərb və Şimal-Cənub Nəqliyyat dəhlizləri ölkəni regionun əsas tranzit mərkəzlərindən birinə çevirib. Bu amil logistika və ticarət sahəsində fəaliyyət göstərən Latviya şirkətləri üçün də əlavə imkanlar yaradır. Ümumilikdə, Azərbaycan-Latviya biznes-forumu iki ölkə arasında iqtisadi tərəfdaşlığın dərinləşdirilməsi üçün praktik platforma rolunu oynayır. Qarşılıqlı investisiya imkanlarının araşdırılması və birgə layihələrin həyata keçirilməsi gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyini deməyə əsas verir.

Latviya Prezidenti Edqars Rinkeviçsin ölkəmizə səfəri və səfər çərçivəsində keçirilən görüşlər, biznes-forum belə deməyə əsas verir ki, Bakı ilə Riqa arasında münasibətlər artıq yeni mərhələyə qədəm qoyur və bu mərhələ konkret layihələr, qarşılıqlı investisiyalar və uzunmüddətli tərəfdaşlıq üzərində qurulur. Mövcud siyasi iradə və formalaşmış hüquqi baza bu əlaqələrin gələcəkdə daha da möhkəmlənəcəyinə və yeni istiqamətlər üzrə inkişaf edəcəyinə əminlik yaradır. Nəticə etibarilə, Azərbaycan-Latviya münasibətləri möhkəm siyasi təməl, geniş iqtisadi imkanlar və dərinləşən humanitar əlaqələr üzərində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsində davamlı xarakter alır. Qarşılıqlı etimad, yüksək səviyyəli siyasi dialoq və ortaq maraqlara əsaslanan əməkdaşlıq modeli iki ölkə arasında əlaqələrin perspektivlərini daha da genişləndirir.

Nail ƏSGƏROV



# Meksika səfiri Mariya Viktoriya Romero Kabalyero Naxçıvana səfər edib







Aprelin 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Meksikanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mariya Viktoriya Romero Kabalyero ilə görüşüb.

Görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan və Meksika Birləşmiş Ştatları arasında dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb. Tərəflər ikitərəfli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Müzakirələr zamanı Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalardan məmnunluq ifadə olunub. Naxçıvan Muxtar Respublikasının Orta Dəhliz üzrə kommunikasiyaların qurulmasında mühüm strateji bölgə kimi önəminə diqqət çəkilib. Regionun iqtisadi potensialı, həmçinin bərpa olunan enerji imkanları, sahibkarlara tətbiq edilən 10 illik vergi güzəştlərinin əhəmiyyəti və gələcəkdə azad iqtisadi zonaya çevriləcəyi istiqamətində həyata keçirilən tədbirlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin Naxçıvan ilə Meksikanın aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlıq perspektivləri müzakirə edilib. Tərəflər memorandumların imzalanması, ikili diplom proqramlarının yaradılması, tələbə və müəllim mübadiləsinin təşkili, eləcə də birgə akademik və elmi layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Müzakirələr zamanı beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasındakı əməkdaşlıq məsələlərinə də toxunulub, səmərəli əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olunub.

Səfir Mariya Viktoriya Romero Kabalyero bildirib ki, səfərin əsas məqsədi Naxçıvanla tanışlıq və "Diego Rivera: daha yaxşı gələcəyin vədi" adlı sərginin təqdimatında iştirak etməkdir.

# Ali Məclisin növbəti plenar iclası keçirilib







Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 2 məsələnin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələ ilə əlaqədar deputatlar fikirlərini bildirdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, növbəti məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir. Məsələ ilə bağlı Bəxtiyar Məmmədov vurğulayıb ki, qanun layihəsi Ali Məclisin 17 aprel 2026-cı il tarixli plenar iclasında birinci oxunuşda qəbul olunub.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin iclası başa çatıb.

Qeyd edək ki, Ali Məclisdə təcrübədə olan Naxçıvan Dövlət Universitetinin tələbələri də plenar iclasda iştirak edib, iclasın gedişini izləyərək qanunvericilik prosesinin praktiki mərhələləri ilə tanış olublar.

# Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində birinci rübün sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib





Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayevin sədrliyi ilə 2026-cı ilin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Baş naziri bildirib ki, 2026-cı ilin birinci rübündə muxtar respublikada həyata keçirilən islahatlar, ümumilikdə, müsbət nəticələr verib. Qeyd olunub ki, hesabat dövründə ümumi daxili məhsul 383,6 milyon manat təşkil edib, real artım 4 faiz olub. Həmçinin əsas kapitala yönəldilən investisiyalar 29,2 faiz, sənaye məhsulu istehsalı 13,4 faiz, ixrac isə 38,5 faiz artıb. Diqqətə çatdırılıb ki, 2026-cı ilin yanvar-mart aylarında Naxçıvan Muxtar Respublikasının büdcə gəlirləri 104,5 milyon manat olmaqla proqnoza 93,6 faiz əməl olunub. Büdcə xərcləri üzrə isə 110,9 milyon manatlıq ilkin plana qarşı 98,9 milyon manat icra olunub və icra səviyyəsi 89,2 faiz təşkil edib.

Büdcə daxilolmalarında artımın müşahidə olunduğunu qeyd edən Cabbar Musayev cari ilin birinci rübündə muxtar respublikada iqtisadi aktivliyin, fiskal intizamın və sosial sabitliyin qorunub saxlanıldığını bildirib.

Əmək bazarında müşahidə olunan çağırışların qarşıdakı mərhələdə daha çevik, düşünülmüş və nəticəyönümlü qərarların qəbulunu zəruri etdiyini qeyd edən Baş nazir ikinci rübdə və ümumilikdə, növbəti dövrdə hökumətin fəaliyyətinin əsas istiqamətlər üzrə ardıcıl, sistemli və məqsədyönlü şəkildə davam etdirilməsinin vacibliyini vurğulayıb.

Sonra müşavirənin gündəliyinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Hüseyn Bağırovun, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyevin və Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Fərid Bağırzadənin məruzələri dinlənilib.

Təqdim olunan məruzələr ətrafında müzakirələr aparılıb, aidiyyəti qurumlara qarşıdakı dövr üçün müvafiq tapşırıqlar verilib.

# Ali Məclisdə NDU tələbələri üçün növbəti təcrübə proqramına start verilib

Aprelin 20-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Naxçıvan Dövlət Universiteti tələbələrinin növbəti təcrübə proqramına başlanılması münasibətilə görüş keçirilib.





Tədbirdə Ali Məclisin Aparat rəhbərinin müavini, Aparat rəhbəri vəzifəsini müvəqqəti icra edən Fazil Məmmədov çıxış edərək bildirib ki, tələbələrin muxtar respublikanın ali qanunvericilik orqanında təcrübə keçmələri artıq ənənə halını alıb. Qeyd edilib ki, ötən il həyata keçirilən təcrübə proqramı uğurlu nəticələr verib və bu təşəbbüs gənclərin dövlət idarəçiliyi sahəsində praktiki biliklərinin artırılmasına mühüm töhfə verir. Diqqətə çatdırılıb ki, tələbələrin təcrübə keçəcəyi bu binada vaxtilə Ulu Öndər Heydər Əliyev Ali Məclisin Sədri kimi fəaliyyət göstərərək müasir dövlətçiliyimizin təməlini qoyub. Ümummilli Liderin bugünkü qüdrətli Azərbaycan naminə burada həyata keçirdiyi tədbirlər gənc kadrların milli dövlətçilik ruhunda formalaşması üçün əvəzsiz stimuldur.

Fazil Məmmədov real iş mühitində qazanılan təcrübənin gələcək peşəkar fəaliyyət üçün mühüm rol oynadığını vurğulayaraq tələbələrə bu imkandan səmərəli istifadə etməyi tövsiyə edib və onlara uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin prorektoru Elsevər Əsədov və digər çıxış edənlər qanunverici orqan olan Ali Məclisdə təcrübə keçməyin tələbələr üçün dəyərli imkan olduğunu diqqətə çatdırıb, yaradılan şəraitin əhəmiyyətini bildirib, minnətdarlıqlarını ifadə ediblər.







## Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib

Aprelin 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihələrinin müzakirəsi olduğunu bildirib.

İclasda gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparıldıqdan sonra qanun layihələri Ali Məclisin plenar iclasında müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanın enerji mənzərəsi

## 2026-cı ilin ilk rübünün nəticələri – davamlı gələcəyin ilk addımları

**2026-cı ilin ilk rübü Naxçıvan Muxtar Respublikasında enerji sektorunun inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Elektrik və qaz təchizatı sahələrində həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri, rəqəmsal texnologiyaların tətbiqi və idarəetmədə çevikliyin artırılması regionun enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verib.**

Eyni zamanda ölkə rəhbərliyi tərəfindən enerji sektorunun inkişafına göstərilən xüsusi diqqət və strateji yanaşma bu sahədə həyata keçirilən islahatların daha sürətli və məqsədyönlü şəkildə icrasına şərait yaradıb. Cənab Prezidentin enerji infrastrukturunun modernləşdirilməsi, regionların dayanıqlı enerji təminatı və rəqəmsal idarəetmə sistemlərinin genişləndirilməsi ilə bağlı tapşırıq və göstərişləri Naxçıvanda da ardıcıl şəkildə icra olunmaqdadır.

***"AzərEnerji" ASC: strateji ötürmə sisteminin yenidən qurulması və dayanıqlılığın artırılması***

2026-cı ilin ilk üç ayı ərzində "AzərEnerji" ASC tərəfindən Naxçıvanın enerji sisteminin əsas sütunu olan yüksəkgərginlikli ötürmə infrastrukturunun gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. İlk növbədə, 110 kV-luq magistral elektrik ötürücü xətlərin texniki vəziyyətinin yaxşılaşdırılması məqsədilə genişmiqyaslı yenidənqurma işləri aparılmış, köhnə dayaqlar müasir, yüksək dayanıqlı metal konstruksiyalarla əvəz edilmişdir. Bu proses yalnız fiziki infrastrukturun yenilənməsi ilə məhdudlaşmayaraq ötürmə qabiliyyətinin artırılmasına və sistemin pik yüklənmələrə davamlılığının yüksəldilməsinə xidmət etmişdir.

Bununla yanaşı, yarımstansiyalarda yerləşən güc transformatorlarının modernləşdirilməsi həyata keçirilmiş, bəzi hallarda isə daha yüksək gücə malik transformatorların quraşdırılması təmin edilmişdir. Bu isə region üzrə elektrik enerjisi paylanmasında balansın optimallaşdırılmasına və gərginlik sabitliyinin qorunmasına şərait yaratmışdır.

Xüsusi vurğulanmalı məqamlardan biri də enerji sistemində rəqəmsal idarəetmə elementlərinin tətbiqidir. SCADA və digər avtomatlaşdırılmış nəzarət sistemlərinin genişləndirilməsi nəticəsində enerji axınlarına real vaxt rejimində nəzarət imkanları artırılmış, qəza hallarına operativ müdaxilə müddəti azaldılmış, insan amilindən asılılıq minimuma endirilmişdir.

Bu tədbirlər nəticəsində ötürmə şəbəkəsində texniki itkilərin azalması, fasiləsiz enerji təminatının gücləndirilməsi və ümumi sistem etibarlılığının yüksəldilməsi müşahidə olunur.

***"Azərişıq" ASC: paylayıcı şəbəkələrin modernləşdirilməsi və istehlak idarəetməsinin optimallaşdırılması***

"Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlər daha çox son istehlakçıya yönəlmiş paylayıcı şəbəkələrin təkmilləşdirilməsini əhatə etmişdir.

Hesabat dövründə aşağı və ortagərginlikli elektrik şəbəkələrində genişmiqyaslı yenidənqurma işləri aparılmış, istismar müddətini başa vurmuş kabellər və hava xətləri yenilənmişdir. Xüsusilə kənd yaşayış məntəqələrində elektrik təchizatının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə köhnə transformator məntəqələri yeniləri ilə əvəz edilmişdir. Bu proses nəticəsində gərginlik düşmələri minimuma endirilmiş, abonentlər üzrə enerji təchizatında sabitlik təmin olunmuş, texniki nasazlıqların sayı azalmışdır.

Eyni zamanda enerji sektorunda rəqəmsallaşmanın əsas istiqamətlərindən biri olan "ağıllı sayğac" sisteminin tətbiqi genişləndirilmişdir. Bu sistem istehlakın dəqiq uçotunu təmin edir, qeyri-texniki itkilərin qarşısını alır, abonent və xidmət göstərən qurum arasında şəffaf münasibət formalaşdırır.



Bununla yanaşı, operativ xidmətlərin keyfiyyətinin artırılması məqsədilə qəza briqadalarının texniki təminatı gücləndirilmiş, çağırışlara cavab müddəti əhəmiyyətli dərəcədə azaldılmışdır. Bu isə enerji xidmətlərinin əlçatanlığını və operativliyini artıran əsas amillərdəndir.

***"Azəriqaz" İB: qazlaşdırma səviyyəsinin genişləndirilməsi və texniki təhlükəsizliyin gücləndirilməsi***

2026-cı ilin ilk rübündə "Azəriqaz" İB tərəfindən Naxçıvan Muxtar Respublikasında qaz təchizatının davamlılığının təmin olunması və şəbəkənin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Əsas prioritet istiqamətlərdən biri yeni yaşayış sahələrinin qazlaşdırılması olmuşdur. Bu çərçivədə fərdi ev təsərrüfatlarının şəbəkəyə qoşulması sürətləndirilmiş, qazlaşdırma səviyyəsi daha da yüksəldilmişdir.

Mövcud qaz şəbəkələrinin texniki vəziyyətinin yaxşılaşdırılması məqsədilə köhnəlmiş boru xətləri mərhələli şəkildə yenilənmiş, korroziyaya qarşı müasir qoruyucu texnologiyalar tətbiq edilmişdir. Bu isə qaz sızmalarının və texniki itkilərin qarşısının alınmasında mühüm rol oynayır.

Bundan əlavə, profilaktik baxış və texniki xidmət tədbirlərinin intensivliyi artırılmış, potensial risklərin qabaqlayıcı şəkildə aradan qaldırılması təmin olunmuşdur.

Abonentlərlə iş sahəsində də müasir yanaşmalar tətbiq edilmiş, vətəndaş müraciətlərinin operativ şəkildə cavablandırılması, səyyar xidmətlərin təşkili və maarifləndirmə tədbirlərinin keçirilməsi nəticəsində xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir.

2026-cı ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasında enerji sektorunda həyata keçirilən tədbirlər göstərir ki, regionda bu sahə artıq lokal problemlərin həllindən çıxaraq strateji inkişaf mərhələsinə qədəm qoymuşdur. Elektrik enerjisinin istehsalı və ötürülməsi, paylanması və qaz təchizatı sahələrində paralel şəkildə aparılan modernləşmə işləri vahid enerji sisteminin formalaşdırılmasına xidmət edir.

Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, infrastrukturun yenilənməsi texnoloji modernləşmə ilə paralel aparılır, rəqəmsallaşma və avtomatlaşdırma idarəetmənin əsas elementinə çevrilir, xidmət keyfiyyəti və vətəndaş məmnunluğu prioritet istiqamət kimi çıxış edir.

Bu isə onu deməyə əsas verir ki, Naxçıvanda enerji sektoru yalnız cari tələbatı ödəməyə deyil, eyni zamanda gələcək çağırışlara cavab verə biləcək çevik və dayanıqlı model üzərində qurulur.

Yekun olaraq qeyd etmək olar ki, 2026-cı ilin ilk rübünün nəticələri Naxçıvanın enerji sektorunda davamlı inkişafın möhkəm təməllər üzərində qurulduğunu göstərir. Atılan addımlar regionun enerji təhlükəsizliyinin təmin olunması ilə yanaşı, onun iqtisadi və sosial inkişafına da mühüm töhfə verir və gələcək illər üçün pozitiv inkişaf trayektoriyasını müəyyən edir.

**Asim ABDULLA**
***Elektroenergetika mühəndisi, doktorant***

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2026-cı ilin may ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix, saat və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 13.05.2026, saat $11^{00}$, Sədərək rayonu, Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədli Abbas Paşa oğlu, 060-570-70-60 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 13.05.2026, saat $11^{00}$, Sədərək rayonu, Dəmirçi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 25.05.2026, saat $16^{00}$, Şərur rayonu, Qaraburc Kənd Mərkəzi | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 22.05.2026, saat $15^{00}$, Şərur rayonu, Alışar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 5. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 12.05.2026, saat $15^{00}$, Şərur rayonu, Çəmənli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 6. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 14.05.2026, saat $10^{30}$, Şərur rayonu, Dərəkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 7. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 15.05.2026, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 8. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 22.05.2026, saat $14^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əliyev Mehman Vəli oğlu, 050-647-50-04 |
| 9. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 06.05.2026, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılov Tural Səid oğlu, 060-206-60-60 |
| 10. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 15.05.2026, saat $15^{00}$, Şərur rayonu, Havuş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərəcova Günel Nəsrəddin qızı, 051-757-33-14 |
| 11. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 13.05.2026, saat $15^{00}$, Şərur rayonu, Qışlaqabbas kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 12. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 22.05.2026, saat $15^{00}$, Şərur rayonu, Püsyan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | İmanov Eldar Yaşar oğlu, 051-927-64-62 |
| 13. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 13.05.2026, saat $10^{30}$, Kəngərli rayonu, Qabıllı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Seyidov Miramil Mirabbas oğlu, 050-865-90-90 |
| 14. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 05.05.2026, saat $11^{00}$, Kəngərli rayonu, Qıvraq qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədova Şənay Bəhlul qızı, 055-503-08-25 |
| 15. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 04.05.2026, saat $14^{00}$, Kəngərli rayonu, Xok kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 16. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 20.05.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Abutalıbov Mədət Arif oğlu, 050-740-20-40 |
| 17. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 08.05.2026, saat $15^{00}$, Babək rayonu, Nehrəm qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 18. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 20.05.2026, saat $15^{00}$, Babək rayonu, Hacıvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 19. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 07.05.2026, saat $11^{00}$, Babək rayonu, Nəhəcir Kənd Mərkəzi | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 20. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 13.05.2026, saat $15^{00}$, Babək rayonu, Kərimbəyli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 21. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 13.05.2026, saat $14^{00}$, Babək rayonu, Yuxarı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 22. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 15.05.2026, saat $12^{00}$, Babək rayonu, Cəhri Qəsəbə Ailə Sağlamlıq Mərkəzinin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyn qızı, 051-533-71-71 |
| 23. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 13.05.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, Tumbul kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 24. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 04.05.2026, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 25. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 19.05.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi və Əlincə məhəlləsi, səyyar qəbul | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85<br>Məmmədova Ziniyət Zakir qızı, 060-544-23-13 |
| 26. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 14.05.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 10 nömrəli tam orta məktəbin binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 27. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 17.05.2026, saat $17^{00}$, Naxçıvan şəhəri, Nəriman Nərimanov küçəsi, səyyar qəbul | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 28. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 22.05.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 7 nömrəli körpələr evi-uşaq bağçasının binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 29. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 06.05.2026, saat $14^{00}$, Naxçıvan şəhəri, 8 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 30. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 22.05.2026, saat $15^{00}$, Naxçıvan şəhəri, 17 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 31. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 19.05.2026, saat $16^{00}$, Naxçıvan şəhəri, 59-cu məhəllə, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 32. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 01.05.2026, saat $14^{00}$, Naxçıvan şəhəri, 16 nömrəli tam orta məktəbin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 33. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 13.05.2026, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuz şəhər “Araz” kinoteatrının binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 34. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 14.05.2026, saat $11^{00}$, Şahbuz rayonu, Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 35. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 12.05.2026, saat $15^{00}$, Babək rayonu, Məzrə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası, saat $16^{00}$ Xalxal Kənd Mərkəzi | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 36. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 14.05.2026, saat $10^{00}$, Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 055-592-42-18, 077-569-43-65 |
| 37. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 22.05.2026, saat $15^{00}$, Culfa rayonu, Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Canbaxşiyev Səməd Canbağış oğlu, 050-263-86-85 |
| 38. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 05.05.2026, saat $11^{00}$, Culfa rayonu, Qızılca Kənd Mərkəzi | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 39. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 14.05.2026, saat $10^{00}$, Culfa rayonu, Xoşkeşin kəndi, səyyar qəbul | Gözəlov Zəkəriyyə Tahir oğlu, 060-289-61-62, 050-289-61-62 |
| 40. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 14.05.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>26.05.2026, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 41. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 07.05.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>21.05.2026, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>26.05.2026, saat $15^{00}$, Ordubad rayonu, Aşağı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43<br>Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 42. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 12.05.2026, saat $16^{00}$, Ordubad rayonu, Unus kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 43. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 05.05.2026, saat $11^{00}$, Ordubad rayonu, Azadkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 44. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 14.05.2026, saat $12^{00}$, Ordubad rayonu, Behrud Kənd Mərkəzi | Əlizadə Polad Pərviz oğlu, 060-441-26-29, 050-660-54-42 |

# Zərifə xanım Əliyevanın həyat yolu, elmi nailiyyətləri və cəmiyyətə verdiyi töhfələr şagirdlər üçün nümunədir

*Kəndin yolları ilə irəlilədikcə sanki zaman da yavaşlayır. Yaz səhərinin yumşaq işığı, az da olsa əsən sərin mehi Şahtaxtı kənd tam orta məktəbinin divarlarına çırpılaraq insana doğmalıq bəxş edir. Kənardan baxdıqda bura adi bir məktəb binası kimi görünür, lakin yaxınlaşdıqca onun içərisində gizlənən həyatın nəfəsini duyursan. Həyətində uşaqların gülüşü, əsən mehin yüngül səs yaratdığı yarpaqların həzin musiqisi qarşılayır bizi. Və bir də məktəbin zəngi. O zəng ki təkcə dərsin başlandığını deyil, həm də illərin xatirələrini oyadır. Addımladıqca sanki torpaq belə bu məktəbin tarixini pıçıldayır bizə: burada, sadəcə, dərs keçilmir, həm də xəyallar böyüyür, ümidlər cücərir.*



Diqqətimizi ilk cəlb edən məktəbdə qəribə bir harmoniyanın olmasıdır, sanki hər şey bir-birini tamamlayır. Müəllimlərin qayğısı, uşaqların saf marağı, divarların səssiz şahidliyi, bir az nostalji, bir az da ümid dolu yaranan mənzərə ilə üz-üzə gəlirik. Sinif otaqlarından gələn səslər bu sakitliyi, bu ardıcıllığı pozmur. Müəllimin eşidilən hər sözü, lövhəyə yazılan hər cümlə, şagirdlərin hər sualı sanki gələcəyə yazılan bir məktub kimidir bu məktəbdə. "Elm insanlığın yolunu işıqlandıran ən böyük gücdür", – deyirlər. Bəzən bu işıq bir kəşf olur, bəzən isə bir ömrün insanlığa həsr edilmiş xidmətləri. Elə məktəbin dəhlizinə ayaq basanda gördüklərimiz bizi bu minvalla bir anlıq düşüncələrə aparır. Zərifə xanım Əliyevanın büstünün qarşısında dayanırıq, sanki keçmişlə bu gün arasında görünməz bir körpü qurulur xəyalımızda. Elmə, insanlığa və mərhəmətə həsr olunmuş bir ömür bizə baxır kimi hiss olunur. *Bu baxışların içində sanki min söz gizlənib, danışmır, amma bizi eşidir. Bu sükutun özü elə bir dərsdir...*

Bu məktəb təkcə təhsil ocağı deyil, həm də Zərifə xanım Əliyeva irsini, ideyalarını, zəhmətini, qoyduğu izi yaşadan bir məkandır. Onun həyat yolu, elmi nailiyyətləri və cəmiyyətə verdiyi töhfələr şagirdlər üçün nümunədir. Məktəbin direktor əvəzi Tural Nuriyevlə söhbət zamanı öyrənirik ki, burada əsas məqsəd yalnız dərs keçmək deyil, həm də şagirdlərdə elmə maraq oyatmaqdır: "Zərifə xanım həyatını insan gözünün ən incə sirlərini öyrənməyə, görmə problemi yaşayan insanlara ümid verməyə həsr etmiş bir alim kimi tanınır. Onun fəaliyyəti təkcə tibb elmi ilə məhdudlaşmırdı, həm də humanist bir missiya daşıyırdı: insanlara daha aydın, daha işıqlı bir dünya bəxş etmək. Zərifə xanım Əliyeva oftalmologiya sahəsində apardığı tədqiqatlarla minlərlə insanın həyatına işıq gətirdi. Onun elmi işləri göz xəstəliklərinin öyrənilməsində və müalicəsində mühüm rol oynadı. Lakin onu fərqləndirən təkcə elmi nailiyyətləri deyildi, həm də insanlara olan qayğısı və mərhəməti idi. Zərifə xanım elmə xidmət etməklə yanaşı, gənc nəslə də örnək olub. Onun həyatı göstərir ki, əsl alim olmaq yalnız bilik sahibi olmaq deyil, həm də bu biliyi insanlığın rifahı üçün istifadə etməkdir. Məktəbimizin şagirdləri də hər zaman Zərifə xanım Əliyevanın səbirlə, zəhmətlə, səssiz mübarizə ilə qazandığı bu uğuru özləri üçün örnək götürürlər. Həmçinin onların bəziləri Zərifə xanım kimi gələcəkdə oftalmoloq olmaq fikrindədilər və bu yöndə hazırlaşırlar".



✍ Ceyhun MƏMMƏDOV

Tural Nuriyev həm də bildirdi ki, 2023-cü ildə Şahtaxtı kənd tam orta məktəbi ilə Ukraynada yerləşən Akademik Zərifə Əliyeva adına İrpen Humanitar Xarici Dillər Liseyi arasında "Dostluq körpüsü" adlı əməkdaşlıq müqaviləsi imzalanıb. İrpendə fəaliyyət göstərən lisey ölkələrimiz və xalqlarımız arasındakı dostluğun göstəricilərindəndir.

Şahtaxtı kənd tam orta məktəbi yalnız bilik verilən məkan deyil, həm də dəyərlərin, ideyaların və gələcəyin formalaşdığı bir ocaqdır. Xüsusilə də böyük bir alimin adını daşıyan məktəb daha fərqli bir məna kəsb edir. Belə məktəblər təkcə təhsil vermir, həm də şagirdlərə nümunə göstərir, onları daha yüksək məqsədlərə doğru yönləndirir. Burada, təbii ki, müəllimlərin rolu xüsusilə böyükdür. Onlar yalnız dərs keçmir, həm də şagirdlərə görkəmli alimin həyat yolunu və nailiyyətlərini anlatmaqla onları ruhlandırırlar.







Deyilən söz isə bu olur: böyük uğurlar təsadüfən qazanılmır, əksinə, uzunmüddətli zəhmət və səbir tələb edir. Şagirdlər burada yalnız kitab bilikləri ilə kifayətlənmir, həm də düşünməyi, yenilik yaratmağı öyrənirlər. Vüsalə Kazımova deyir ki, məktəbin mühiti elə bu ideyaya uyğun formalaşıb: "Bu gün Zərifə xanım Əliyevanın adı çəkiləndə təkcə bir alim deyil, həm də insanlığın gözünə işıq gətirən bir şəxsiyyət xatırlanır. Onun elmi və mənəvi irsi gələcək nəsillər üçün yol göstərən bir məşəl kimi yaşayır. Məktəbimizdə daim görkəmli alimin ideyaları təbliğ olunur. Biz müəllimlər ilk olaraq cəmiyyətə onları sağlam fərd kimi formalaşdırmağa çalışırıq, eyni zamanda qız şagirdlərimizə Zərifə xanımın nəinki alim, bir ana kimi dahi insan olduğunu vurğulayırıq. Məhz bunun bəhrəsidir ki, bu gün məktəbdə təhsil alan şagirdlərin bəziləri gələcəyin həkimi olub Zərifə xanımın yolunu davam etdirmək istəyirlər".



Dəhlizlərdən keçib muzeyin qapısını açanda isə sanki başqa bir dünyaya düşürsən. Bura, sadəcə, muzey deyil, həm də dünyaşöhrətli alimin xatirələrinin pıçıltı ilə danışıldığı bir məkandır. Rəflərdə olan fotolar, səliqə ilə düzülmüş köhnə kitablar, Ulu Öndərin bir qadın üçün dediyi ən dəyərli sözlərin yazıldığı tablo alimin ömrünün izlərini daşıyır özündə. Muzeydə sanki hər şey danışır, lakin səssizcə. Bura daxil olarkən addımlarını ehtiyatla atırsan ki, keçmişin sakitliyi pozulmasın. Bir anlıq düşüncəyə dalırsan, anlayırsan ki, böyük olmaq yalnız yaşamaq deyil, iz qoymaqdır. O iz ki illər keçsə də, silinmir, nəsildən-nəslə ötürülür. İzlərin qorunduğu bu muzeyin ziyarətçiləri – şagirdlər yalnız olanlar baxmır burada, həm də bir ruhu hiss edirlər. O ruh ki onları daha çox oxumağa, daha çox öyrənməyə səsləyir, sövq edir. Elm sonsuz bir yoldur, bu yolu qorxmadan davam etməyi isə şagirdlər məhz bu muzeydə öyrənirlər. Muzey həm də şagirdlər üçün həyatın səssiz, amma əbədi nəğməsi olaraq qalır xatirələrində.





Şahtaxtıda yerləşən məktəbdə ən dəyərli hiss ümiddir. Hər bir şagirdin gözlərində gələcək arzuları, hər bir müəllimin üzündə isə bu arzulara dəstək olmaq istəyi görünür. Belə bir məktəbdə oxuyan şagird üçün məsuliyyət daha böyükdür. Çünki o sadəcə, özünü deyil, həm də məktəbin adını təmsil edir. Bu isə onu daha intizamlı, daha çalışqan və daha məqsədyönlü edir. Kənd məktəbi olmasına baxmayaraq, burada böyük ideyalar böyüyür. Məktəbin şagirdləri ilə söhbət edəndə bildirirlər ki, bu məktəbdə oxumaq onlar üçün qürurvericidir: "Biz çalışırıq ki, məktəbimizin adını daşıyan alim kimi uğurlu olaq. Məktəbin girişində olan Zərifə xanımın büstü bizlər üçün, sadəcə, bir büst deyil, bu həm də zəhmətin, elmin və uğurun rəmzidir. Hər gün məktəbin qapısından içəri girəndə istər-istəməz düşünürük: "Biz də belə uğurlu ola bilərikmi?" Bəzən bu sual bizim daxilimizdə bir motivasiya yaradır", – deyə 9-cu sinif şagirdi Nigar Məmmədova qeyd edir.

Məktəbdən ayrılarkən insanın içində qəribə bir hiss oyanır, sanki təkcə bir məktəbdən yox, bir xatirənin içindən çıxırsan. Və anlayırsan ki, bəzi yerlər, sadəcə, təhsil ocağı deyil, onlar hissdir, yaddaşdır, ideyanın daşıyıcısıdır, gələcəyin formalaşdığı bir məkandır. Ən əsası, gələcəyə açılan elm qapısıdır, bu qapıda hər gün yeni bir ümid doğur, hər dərs isə bir həyat dərsinə çevrilir.

*Və bu sükut içində anlayırsan: SƏN susaraq danışmağı, öyrətməyi bacaranlardansan!*



Ümummilli Liderimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə həqiqi müstəqillik əldə edən Azərbaycanda iqtisadi sistemin əsaslı şəkildə dəyişdirilməsi, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və sahibkarlığın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. 1990-cı illərin əvvəllərində ölkədə iqtisadi tənəzzül, istehsalın zəifləməsi və hüquqi-institusional boşluqlar sahibkarlığın formalaşmasını çətinləşdirsə də, Ulu Öndərin uzaqgörən siyasəti sayəsində sonrakı mərhələdə həyata keçirilən islahatlar bu sahədə əsaslı dönüş yaratdı. Belə ki, ölkədə sahibkarlığın inkişafı təkcə iqtisadi artım deyil, həm də sosial sabitlik və regional inkişafın təmin olunması baxımından strateji əhəmiyyət daşımağa başladı.

# Müasir Azərbaycanın strateji prioritetləri:

## azad sahibkarlıq və davamlı iqtisadi inkişaf modeli

Makroiqtisadi sabitliyin bərpası, özəlləşdirmə proseslərinin başlanması və 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" nəticəsində ölkəyə xarici investisiyaların axını sahibkarlıq fəaliyyətinin genişlənməsinə şərait yaratdı. Həmin dövrdə Sahibkarlığa Kömək Milli Fondu (hazırda bu funksiyanı Azərbaycan Biznesinin İnkişafı Fondu yerinə yetirir) vasitəsilə güzəştli kreditlərin verilməsi kiçik və orta biznesin inkişafını sürətləndirdi və yeni sahibkarlıq subyektlərinin yaranmasına təkan verdi.





2003-cü ildən sonra Ümummilli Lider siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi siyasət daha sistemli və nəticəyönümlü xarakter alıb. Sahibkarlığın inkişafı üçün hüquqi və institusional mühitin yaxşılaşdırılması, regionların inkişafı və qeyri-neft sektorunun genişləndirilməsi əsas prioritetlər kimi müəyyənləşdirilib. Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramları çərçivəsində həyata keçirilən infrastruktur layihələri iqtisadi fəallığın ölkə üzrə daha balanslı paylanmasına və sahibkarlıq fəaliyyətinin regionlarda genişlənməsinə şərait yaradıb. Nəticədə, iqtisadi inkişafın mərkəzləşməsinin azalması və regional biznes mühitinin güclənməsi müşahidə olunub. Eyni zamanda dövlət tərəfindən özəl sektora göstərilən diqqət sahibkarlığın institusional əsaslarının möhkəmlənməsinə xidmət edib. Bunun bariz nümunələrindən biri Prezident İlham Əliyevin 2016-cı il 21 aprel tarixli Sərəncamı ilə aprelin 25-nin Azərbaycanda "Sahibkarlar Günü" kimi təsis edilməsidir. Bu qərar həm də sahibkarlığın ölkənin sosial-iqtisadi inkişafında, xüsusilə məşğulluğun təmin olunmasında artan rolunun dövlət səviyyəsində tanınmasının göstəricisidir.

Özəl sektorun inkişafına xidmət edən mühüm faktorlardan biri də sənaye zonalarının yaradılmasıdır. Bu baxımdan, Sumqayıt Kimya Sənaye Parkı, Mingəçevir Sənaye Parkı və Balaxanı Sənaye Parkı kimi layihələr ötən dövrdə istehsalın artmasına, ixrac potensialının güclənməsinə və yeni iş yerlərinin yaradılmasına geniş imkanlar açıb. Eyni zamanda 2016-cı ildən sonra qəbul edilən strateji yol xəritələri sahibkarlığın inkişafını daha strukturlaşdırılmış mərhələyə keçirib. KOBİA-nın yaradılması sahibkarlara dövlət dəstəyinin daha sistemli və çevik mexanizmlərlə təqdim olunmasına imkan yaradıb. Həmçinin "ASAN xidmət" və elektron idarəetmə sistemlərinin tətbiqi biznes mühitində şəffaflığın artırılmasına və inzibati prosedurların sadələşdirilməsinə mühüm töhfə verib. Ən əsas amillərdən biri də Prezident İlham Əliyev tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun imzalanması və onun müddətinin 2027-ci il yanvarın 1-ə qədər uzadılmasıdır. Bu addım biznes mühitində inzibati yükü əhəmiyyətli dərəcədə azaldaraq sahibkarlıq fəaliyyətinin daha sərbəst və şəffaf şəkildə inkişafına şərait yaradıb. Bütün bu amillər özünü statistik nəticələrlə də büruzə verir. Belə ki,



2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7 faiz artıb və ümumi iqtisadiyyatda payı 68 faizə yüksəlib. Son 6 ildə qeyri-neft ixracı, demək olar ki, 2 dəfə artıb ki, bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin göstəricisidir. Eyni zamanda dövlət-özəl tərəfdaşlıq mexanizmləri və aparılan islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4 faiz səviyyəsindədir. Bu da Azərbaycanda sahibkarlığın iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrildiyini və ölkədə dayanıqlı, rəqabətqabiliyyətli iqtisadi modelin formalaşdığını göstərir.

### *Qarabağ bölgəsində sahibkarlığın inkişafı və yeni iqtisadi mərhələ*

Vətən müharibəsində əldə olunan tarixi zəfərdən sonra Azərbaycanın qarşısında yeni strateji inkişaf mərhələsi açılıb. Bu baxımdan, "Böyük Qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri yalnız fiziki infrastrukturun bərpası ilə məhdudlaşmır, eyni zamanda regionda müasir iqtisadi sistemin formalaşdırılmasını da hədəfləyir. Mövcud yanaşma ərazilərin uzunmüddətli sosial-iqtisadi inkişafına xidmət edən kompleks dövlət siyasətinin tərkib hissəsidir. Hazırda Ağdam, Füzuli, Şuşa, Zəngilan və digər rayonlarda sənaye parklarının, aqroparkların, logistika mərkəzlərinin, həmçinin turizm və xidmət infrastrukturlarının yaradılması intensiv şəkildə davam etdirilir. Bu layihələr regionun iqtisadi strukturunu diversifikasiya edir, qeyri-neft sektorunun payını artırır və sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün əlverişli zəmin yaradır. Xüsusilə sənaye zonalarının təşkili yerli və xarici investorlar üçün yeni imkanlar açaraq regionu iqtisadi aktivlik mərkəzinə çevirmək potensialına malikdir.



Dövlət tərəfindən Qarabağ və Şərqi Zəngəzurda biznes mühitinin stimullaşdırılması məqsədilə genişmiqyaslı vergi və gömrük güzəştləri tətbiq olunur, sahibkarlıq subyektlərinə müxtəlif maliyyə və institusional dəstək mexanizmləri təqdim edilir. Bununla yanaşı, nəqliyyat, enerji və kommunikasiya infrastrukturunun sürətlə bərpası və müasirləşdirilməsi iqtisadi fəaliyyətin dayanıqlı şəkildə inkişafına xidmət edir. Regionda həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları isə innovativ texnologiyaların tətbiqinə əsaslanan yeni idarəetmə modelini formalaşdırır. Bu yanaşma rəqəmsal iqtisadiyyatın inkişafını sürətləndirir, resurslardan səmərəli istifadəyə şərait yaradır və müasir sahibkarlıq mühitinin formalaşmasını təmin edir. Eyni zamanda bu model regionun ekoloji dayanıqlılığını və sosial rifahını da gücləndirir.

### *Naxçıvanda sahibkarlığın inkişafı və institusional güzəştlər sistemi*

Naxçıvanda yerli istehsalın gücləndirilməsi, daxili bazarın qorunması və özünütəminetmə prinsipləri sahibkarlığın əsas istiqamətlərini müəyyən edib. Kənd təsərrüfatı, qida sənayesi və kiçik istehsal sahələri burada iqtisadi inkişafın əsas dayaqlarından birinə çevrilib. Məhz bu baxımdan 2026-cı il yanvarın 1-dən 10 il müddətinə Naxçıvanda tətbiq olunan vergi, sosial və gömrük güzəştləri sahibkarlığın inkişafında mühüm dönüş nöqtəsi hesab olunur. Bu güzəştlər sahibkarlıq subyektləri üçün vergi yükünün azaldılmasını, sosial ödənişlərdə yüngülləşdirmələri və idxal-ixrac əməliyyatlarında gömrük rüsumlarının optimallaşdırılmasını əhatə edir. Nəticədə, biznes xərcləri azalır, investisiya cəlbediciliyi artır və yeni müəssisələrin yaranması sürətlənir.

Həyata keçirilən sosial-iqtisadi inkişaf tədbirlərinin nəticəsidir ki, bu ilin birinci rübündə regionda sahibkarlığın təşviqi və investisiya fəallığının artırılması istiqamətində mühüm nailiyyətlər əldə edilib. Bu müddətdə Naxçıvan Muxtar Respublikasında yeni istehsal və xidmət sahələrinin yaradılması, eləcə də mövcud layihələrin genişləndirilməsi istiqamətində 48 layihə icra olunub. Həmin layihələrdən 13-ü yeni yaradılma, 35-i isə mövcud layihələrin genişləndirilməsi üzrə həyata keçirilib. Eyni zamanda 38-i yaradılma və 65-i genişləndirmə olmaqla, ümumilikdə, 103 layihənin icrası davam etdirilib. Əminliklə demək olar ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası, eyni zamanda Zəngəzur dəhlizi və Azad İqtisadi Zonanın (AİZ) reallaşdırılması fonunda tətbiq olunan vergi, sosial və gömrük güzəştləri muxtar respublika iqtisadiyyatına yerli sərmayələrin və investisiyaların cəlb olunmasına əlverişli şərait yaradacaq. Bu isə sahibkarlığın, xüsusilə kiçik və orta biznesin inkişafına, paralel olaraq yeni iş yerlərinin yaradılmasına və əhali məşğulluğunun artmasına mühüm təkan verəcək. Bütün bu proseslərin həyata keçirilməsi Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, həm də kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə səbəb olacaq. Eyni zamanda ticarət və logistika ilə yanaşı, turizm sektorunda da əhəmiyyətli canlanma müşahidə olunacaq.

Sadalanan bütün faktlar və reallaşdırılan layihələr belə deməyə əsas verir ki, Azərbaycanda sahibkarlığın inkişafı dövlət müstəqilliyinin bərpasından sonra həyata keçirilən ardıcıl iqtisadi islahatların nəticəsidir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji siyasi kurs və Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi, dövrün tələblərinə uyğun yeni keyfiyyət mərhələsinə yüksəltməsi nəticəsində sahibkarlıq ölkə iqtisadiyyatının aparıcı qüvvələrindən birinə çevrilib. Qarabağda reallaşdırılan genişmiqyaslı bərpa və iqtisadi quruculuq işləri, Naxçıvanda tətbiq olunan güzəştlər, icra olunan genişmiqyaslı layihələr və ölkə üzrə həyata keçirilən inzibati islahatlar bu inkişafın yeni mərhələyə keçdiyini göstərir.

**Nail ƏSGƏROV**

# Naxçıvanda su təminatı:
## qlobal çağırışlar fonunda regional dayanıqlılıq modeli

**Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına yönəlmiş siyasətində Naxçıvan Muxtar Respublikası xüsusi yer tutur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında su təminatı məsələsi prioritet istiqamətlərdən biri kimi mühüm əhəmiyyət daşıyır. Bu xüsusda cari il fevralın 21-i və 24-də dövlət başçısının "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi barədə və "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamları Prezident İlham Əliyevin *"Naxçıvanla bağlı böyük planlarımız var"* ideyasına əsaslanaraq qlobal çağırışlar fonunda Azərbaycanın vahid sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi çıxış edir.**

### *Su qıtlığı: təbii amillər və artan tələbatın kəsişməsi*

Məlum olduğu üzrə, dünyada müşahidə olunan qlobal iqlim dəyişiklikləri, temperaturun yüksəlməsi, əsasən, qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun, yağıntıların xeyli azalması, digər tərəfdən, əhalinin sürətli artımı, iqtisadiyyatın, kənd təsərrüfatı sahələrinin inkişafı Azərbaycanda içməli və suvarma suyunun getdikcə tükənməsinə yol açmaqla təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir. Ölkəmizin kənd təsərrüfatı sürətli inkişaf etmiş iqtisadi rayonlarından olan Naxçıvanda da əhalini və əkinçiləri ən çox narahat edən məqamlar sırasında içməli və suvarma suyunun tələbatı ödəməməsi öndə gəlir. Bu baxımdan, su ehtiyatlarının qorunması, onların səmərəli idarə olunması və əhalinin su təminatının daha da yaxşılaşdırılmasını özündə ehtiva edən Tədbirlər Planı, birinci növbədə, qlobal çağırışlara əsaslanır. Nəzərə alsaq ki, muxtar respublikada il ərzində günəşli günlərin sayı daha çox, yağıntının miqdarı nisbətən az müşahidə edilir, o zaman dünyada istiləşmənin getdiyi hazırkı dönəmdə bu sahədə çətinliklərin yaranması qaçınılmazdır. Mövcud vəziyyət, təbii ki, ilk növbədə, su anbarlarında, sututarlarda suyun kəskin surətdə aşağı düşməsinə, quyularda su çəkilmələrinə səbəb olur. Belə olan halda əkinçilikdə məhsuldarlıq aşağı düşür, ekoloji cəhətdən təmiz, təbii kənd təsərrüfatı məhsulu istehsalı xeyli zəifləyir. Məhz təsdiq edilən yeni Tədbirlər Planında da əsas məqsəd mövcud vəziyyət nəzərə alınaraq innovativ yanaşma və metodlardan istifadə edilməklə dayanıqlı inkişafa nail olmaqdır. Bu xüsusda Əlincəçaydan və Bənəniyar su anbarından, Şərur, Kəngərli rayonları ərazilərində Arpaçaydan qidalanan hidrotexniki qurğuların yenidən qurulması, Sədərək, Culfa rayonları ərazilərində Araz çayından, Ordubad rayonu ərazisində Araz çayından və Gilançaydan qidalanan hidrotexniki qurğuların əsaslı təmiri və digər infrastruktur layihələri müstəsna əhəmiyyət daşıyacaq. Ümumilikdə, 3 rayonda hidrotexniki qurğuların əsaslı təmiri, 7 ərazidə hidrotexniki qurğuların yenidən qurulması, 1 rayonda nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması, 3 rayonun kəndlərinin içməli su təchizatı şəbəkəsinin qurulması, 1 içməli sutəmizləyici qurğunun bərpası, 1 içməli sutəmizləyici qurğunun tikintisi, 3 şəhər və rayon üzrə qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi nəzərdə tutulur. Hazırda bir sıra layihələrə vəsaitin bölgüsü aparılıb, layihə-smeta sənədlərinin tamamlanması, tikinti işlərinin başlanması istiqamətində tədbirlər həyata keçirilir.

Tədbirlər Planı həm icra müddəti, həm də qlobal məsələyə yanaşması və hədəfləri nöqteyi-nəzərdən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in reallaşdırılmasına da xidmət edəcək. Nəzərdə tutulan məsələlərin həllini tapması müasir sosial-iqtisadi infrastruktur quruculuğunun tərkib hissəsi kimi ən yeni həyat standartlarına əsaslanan yüksək sosial rifahın formalaşdırılmasını hədəfləyir. Yəni qəbul edilən bütün qərar, verilən sərəncam və fərmanlar kimi növbəti Sərəncamda da əsas amil Azərbaycan vətəndaşı, onun sağlam həyat tərzi və sosial rifahının təminatıdır. Bu məsələdə sosial rifahın yaxşılaşdırılması həm suvarma infrastrukturunun yenidən qurulması, həm də içməli su təchizatı sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Suvarma suyunun yaxşılaşdırılması əhalinin ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarını əldə etməsinə, aqrar sahədə yeni təsərrüfatların qurulmasına geniş imkanlar açacaq.

Prezident İlham Əliyevin bu il fevralın 24-də imzaladığı "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Sərəncam isə muxtar respublikada içməli su təminatının keyfiyyətcə yeni mərhələyə yüksəldilməsini hədəfləyir. Sərəncama əsasən əhalisi 80 min nəfərdən çox olan 38 yaşayış məntəqəsində 40 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulur ki, bu da regionda içməli suya olan tələbatın ödənilməsi baxımından mütərəqqi addımdır. Qeyd olunan tədbirlər su təminatında mövcud çətinliklərin aradan qaldırılması, əhalinin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunması üçün xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda bu layihələrin icrası su ehtiyatlarından daha səmərəli istifadə olunmasına, yeraltı su mənbələrinin düzgün idarə edilməsinə və uzunmüddətli perspektivdə su təhlükəsizliyinin təmininə xidmət edəcək.

Nəticə etibarilə, həyata keçirilən tədbirlər insanların gündəlik həyat keyfiyyətinin yüksəlməsinə, sağlam mühitin formalaşmasına və müasir şəhər, kənd infrastrukturu standartlarına uyğun yaşayış şəraitinin təmin olunmasına mühüm töhfə verəcək.

### *İnfrastruktur yanaşmasından idarəetmə modelinə keçid*

Son dövrlərdə qəbul olunan qərarlar göstərir ki, yanaşma yalnız infrastrukturun genişləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda su ehtiyatlarının idarə olunması modelinin yenilənməsini nəzərdə tutur. Bu baxımdan, hidrotexniki qurğuların yenidən qurulması, su anbarlarının və nasos stansiyalarının modernləşdirilməsi mühüm addım olsa da, əsas məsələ bu resursların səmərəli idarə edilməsidir.

Yeni Tədbirlər Planında diqqətçəkən əsas məqamlardan biri müxtəlif su mənbələrinin – çaylar, su anbarları və yeraltı ehtiyatların inteqrasiyalı şəkildə istifadəsinin nəzərdə tutulmasıdır.

Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da məhz suvarma və içməli su təminatının yaxşılaşdırılması istiqamətində işlərin həyata keçirilməsi, layihələrin icrası nəzərdə tutulub. Proqramda qeyd olunur ki, kənd təsərrüfatına yararlı torpaqların su ilə təminatının yaxşılaşdırılması, təsərrüfatlarda mövcud ənənəvi suvarmadan mərhələli olaraq mütərəqqi suvarma sistemlərinə keçidin təmin edilməsi ilə torpaqlardan səmərəli istifadə olunacaq, müasir suvarma infrastrukturu formalaşdırılacaq. Eyni zamanda rayon mərkəzlərində və kəndlərdə içməli su təminatının artımı ilə bağlı tədbirlərin görülməsi də nəzərdə tutulub. Prezidentin təsdiq etdiyi Tədbirlər Planı isə konkret layihələri müəyyənləşdirməklə məhz muxtar respublikanın sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasına bilavasitə güclü təkan verəcək. Sərəncamın əsas məqsədləri sırasında su ehtiyatlarının qorunması, su təchizatı və suvarma sistemlərinin yenilənməsi, itkilərin azaldılması və müasir texnologiyaların tətbiqi də yer alır. Bu xüsusda əsas görüləcək işlərdən biri torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması və şəhraləşməsına qarşı mübarizədir.

Naxçıvan şəhərinin Qaraxanbəyli, Tumbul, Şərur rayonunun Püsyan, Tumaslı, Xanlıqlar və Kəngərli rayonunun Böyükdüz, Xok kəndləri ərazisində qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi əkinçiliyin təşviqinə yol açmaqla kənd təsərrüfatının dayanıqlılığının artırılmasına xidmət edəcək. Məlum olduğu üzrə hazırda əkin sahələrinin suvarılması zamanı, əsasən, açıq kanallardan istifadə olunur. Təbii ki, bu da həm su israfına, həm də bəzi ərazilərdə su sızmaları nəticəsində torpaqların şoranlaşmasına və meliorativ vəziyyətin pisləşməsinə səbəb yarada bilir. Tədbirlər Planı çərçivəsində qapalı suvarma və kollektor-drenaj şəbəkələrinin tikintisi sayəsində su itkiləri minimuma enəcək, suyun əraziyə daha dəqiq və qənaətli şəkildə paylanması təmin ediləcək. Beləliklə, həm su resurslarından səmərəli istifadə olunacaq, həm də torpağın münbitliyi qorunub saxlanılacaq. Eyni zamanda qapalı suvarma və kollektor-drenaj sistemlərinin qurulması torpaqların deqradasiyasının qarşısını almaqla uzunmüddətli kənd təsərrüfatı potensialını gücləndirir.

### *Aqrar sektorda transformasiya: suvarmadan məhsuldarlığa*

Kənd təsərrüfatı mütəxəssislərinin məsləhət gördüyü şırımla suvarma taxıl, eləcə də cərgəarası bitkilərin becərilməsində istifadə olunan mütərəqqi üsullardan biri kimi müasir əkinçilikdə xüsusi yer tutur. Həmin üsuldan istifadə zamanı suvarma suyuna qənaət edilir, eyni zamanda bitkilərin suya olan tələbatı müntəzəm təmin olunur. Eyni zamanda damcı üsulu da qlobal su problemi ilə mübarizə baxımından özündə üstün keyfiyyətləri birləşdirir. Bu metodda suya qənaət olunmaqla daha az su ilə daha çox sahə suvarılır, torpaqda erroziya prosesi baş vermir, qrunt sularının səviyyəsi su itkiləri olmadığından dəyişməz qalır, torpaqlarda təkrar şoranlaşmanın qarşısı alınır, suvarma suyu birbaşa bitkinin kök sisteminə verildiyindən onun kökətrafı zonada bərabər şəkildə paylanması təmin edilir. Suvarmada digər bir geniş istifadə edilən yağışyağdırma üsuludur ki, bu zaman suvarma suyu nasosların köməyi ilə çiləyici aparatlara xüsusi borular vasitəsilə müəyyən olunmuş təzyiqlə vurulur və yağış şəklində torpağa səpilərək torpağı, bitkiləri nəmləndirir. Bu üsulla suvarmada torpaq qatı müntəzəm olaraq nəmlənir, suvarma avtomatlaşdırılır, torpaq deqradasiyasının qarşısı alınır, suvarmanın kiçik normalarla və tez-tez aparılması hesabına suvarma suyuna qənaət olunaraq becərilən bitkilərin məhsuldarlığı yüksəlir.

### *Strateji baxış və uzunmüddətli perspektiv*

Su təminatı ilə bağlı siyasətin ən çox təsir etdiyi sahələrdən biri kənd təsərrüfatıdır. Ənənəvi suvarma üsullarından müasir texnologiyalara keçid burada yalnız yenilik deyil, həm də struktur transformasiyası deməkdir.

Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə sudan səmərəli istifadə məsələsinin xüsusi gündəmə gətirilməsinin, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin də əsas məqsədi bu ümumbəşəri problemin yaxın gələcəkdə Azərbaycan üçün daha ağır nəticələrə yol açmasının qarşısını almaqdır. Əminliklə demək olar ki, "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi barədə və "Naxçıvan Muxtar Respublikasında əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamların icrası qlobal çağırışlar fonunda Naxçıvanın dayanıqlı inkişafını təmin etməklə həm əhali rifahının yaxşılaşdırılmasına, həm də ölkənin sosial-iqtisadi inkişaf strategiyasına mühüm töhfələr verəcək.

✍ **Nail ƏSGƏROV**



# Ömrün sakit limana yan aldığı ünvan

Bu günlərdə yolumuzu Naxçıvan Şəhər Təqaüdçülər Klubuna saldıq. Qapının astanasını keçən kimi anlayırsan ki, bura zamanın yavaşladığı, xatirələrin nəfəs alıb köks ötürdüyü, ömrün sakit bir limana yan aldığı məkandır. Əslində, bu səssizlikdə bir-birindən fərqli həyat var. Danışılmayan, amma hiss olunan…

İçəri daxil olanda bizi qarşılayan ilk şey səs yerinə, hisslər oldu. Zərblə çırpılan şahmat daşlarının səsləri, asta gülüşlər, aram-aram qurulan cümlələr… Həyat burada qəti tələsmir. Elə bil, kimsə zamana dayan deyib.

Salonun ortasında masa başına toplaşan ağsaqqallar var. Söhbət zamanı gülümsəyəndə o qırışlar da hərəkətə gəlir, illərin tozu altındakı xatirəni gün işığına çıxarır. Baxışlarında isə qəribə bir dərinlik var. Uzaqlara, bəlkə də, bizim görə bilmədiyimiz o "dünənlərə" dikilən bir baxış. O gözlərdə həm Naxçıvanın sərt qışının soyuğu, həm də Araz kənarındakı baharın mehribanlığı donub qalıb.

Burada hər kəs fərqli yollardan gəlib, amma indi hamısının yolu eyni ünvanda kəsişib və dayanıb. Kimi sinif otaqlarında gələcək yetişdirib, kimi torpaqla danışıb, kimi zavodların səsi içində ömrünü əridib. İndi isə hamısı bir masa ətrafında əyləşib. Sakit, amma dolu bir həyatın şahidləri kimi.



Nərd taxtasının üstündə daşlar toqquşur, zərlər atılır. Burada hər kəs bilir ki, zər nə gətirirsə gətirsin, əsas olan o daşları hansı müdrikliklə oynatmaqdır, eynən həyat kimi. Kimi "şeş" gözləyərkən "yek"lə barışır, kimi də ən çətin vəziyyətdə bir gedişlə mənzərəni dəyişir. Daşlar xanalar boyu sürüşdükcə, xatirələr də vərəqlənir. Bu oyun, əslində, bir təsəllidir. Qocalığın gətirdiyi o ağır səssizliyi dağıdan, insanı hələ də "mübarizədəyəm" deyə ayaqda tutan sehrli ayin kimidir.

Bir tərəfdə əyləşən 98 yaşlı Nadir baba danışır. Səsi asta, baxışı uzaqlardadır. O, Naxçıvanın köhnə məhəllələrindən danışır. Qapısı açıq evlərdən, bir tikə çörəyin bölündüyü günlərdən… Danışdıqca sanki o illər geri qayıdır. Onun gözlərində qəribə işıq var. Elə işıq ki nə tam sevinc, nə də tam həsrət… İkisinin arasında bir duyğu.

Bura onlar üçün vaxt keçirmə yerindən daha çoxudur. Bura unudulmamaq üçündür, insanın hələ də yaşadığını hiss etməsi üçündür.

Söhbətlər uzanır. Mövzular dəyişir. Bəzən siyasətə toxunurlar, bəzən mədəniyyətə, bəzən də, sadəcə, keçmişin xatirələrinə sığınıb qalırlar. Bəzən salonun ortasına qəfil sükut çökür. O sükut ki illərin sınağından keçmiş anlayışın, sözə ehtiyac duymayan həmdəmliyin adıdır.

Onlar bir-birinin üzünə baxanda minlərlə kəlmə havada asılı qalır. Bir baxış kifayət edir ki, qarşıdakının hansı kədərin dumanına büründüyünü, hansı itkinin ağrısını yenidən xatırladığını başa düşsünlər. Bu bir-birini sözsüz, nəfəsindən, stəkanı tutuşundan, uzaqlara dikilən o dalğın baxışından tanımağın sakitliyidir.

Burada sevinc də ortaqdır, kədər də. Kiminsə nəvəsi universitetə qəbul olanda hamı sevinir. Kiminsə səhhəti pisləşəndə hamı narahat olur. Bu məkan insanları qohum etməsə də, ürəkdən bağlamağı bacarır.

Pəncərədən süzülən günəş işığı otağa yayılanda nurani simalar işığa qərq olur. İstəyirsən, vaxt uzansın, söhbət bir az da davam etsin.

Burada anlayırsan ki, qocalıq bu insanlar üçün yolun sonu, yaxud ömrün qürub çağı deyil. Həyat kitabının ən müdrik, ən sanballı fəslidir. Daha sakit templə oxunan, hər cümləsi dərin məna kəsb edən, sətiraltı mənalarla dolu bir fəsil... Fırtınalı dənizdən sonra gələn o dərin və hüzurlu sakitlik kimi.

Təqaüdçülər Klubu xatirələrin divarlara sindiyi, hər küncündə bir ömrün əks-sədasının duyulduğu mənəvi sığınacaqdır. Ömrün yorulmuş, amma əsla sınmamış, əyilməmiş tərəfi burada, nəfəs alır. İllərin yükü çiyinlərini büksə də, qapıdan içəri girəndə o yükü kənara qoyub, yenidən o doğma, o səmimi insanlıq istisinə bürünürlər. Bura keçmişlə bu günün qovuşduğu, zamanın amansızlığına qarşı dostluqla, ümidlə sipər çəkildiyi qaladır.

Bəlkə də, gənclər bura daha çox gəlməlidir. Bu baxışlarda, bu səslərdə, bu susqunluqda gizlənən dərsləri öyrənmək üçün. Çünki həyatın ən böyük həqiqətləri bəzən ən sakit yerlərdə yaşayır.

Biz isə oradan ayrılırıq… Arxada qalan gülüşlər, səmimi baxışlar və deyilən dualarla birgə. Birdən düşünürsən; sevginin, hörmətin olduğu yerdə qocalıq rəqəmlərdən ibarətdir. O rəqəmlər isə həyatın ən uca və mənalı zirvəsinin adıdır.

✍ **Elnurə CƏFƏROVA**









## "Zəkaların mübarizəsi" olimpiadasının bilik yarışı üzrə regional mərhələsi keçirilib



Aprelin 21-də Naxçıvanda Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində ölkənin ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında keçirilən "Zəkaların mübarizəsi" olimpiadasının bilik yarışı üzrə regional mərhələsi təşkil olunub.

Olimpiadanın keçirilməsində əsas məqsəd müxtəlif sahələrdə bilik və bacarığı ilə seçilən istedadlı gəncləri aşkar etmək, şagirdlərdə əməkdaşlıq, effektiv ünsiyyət, liderlik keyfiyyətləri, müzakirə mədəniyyəti, qərarvermə, komanda ilə işləmə, analitik və məntiqi düşünmə, planlaşdırma və strategiya qurma bacarıqlarını inkişaf etdirmək, onlar arasında sağlam rəqabət mühitini formalaşdırmaq və region gəncləri arasında ünsiyyət mühitini genişləndirməkdir.

Sonra olimpiadaya start verilib. Olimpiadada muxtar respublikanın ümumi təhsil müəssisələrindən 48 məktəbli 8 komandada mübarizə aparıb. Komandalara riyaziyyat-məntiq, rəqəmsal texnologiyalar, təbiət elmləri, mədəniyyət və incəsənət olmaqla, beş müxtəlif istiqamətlər üzrə, ümumilikdə, 25 sual təqdim olunub.

Bilik yarışında 84 xalla "Ordubad" komandası regional mərhələnin qalibi olub.

Məlumat üçün bildirək ki, aprelin 23-də "Zəkaların mübarizəsi" olimpiadası şahmat turniri istiqaməti üzrə keçirilib. May ayında isə paytaxt Bakıda keçiriləcək olimpiadanın respublika mərhələsində Naxçıvan Muxtar Respublikasını regional mərhələdə bilik yarışı və şahmat turniri istiqaməti üzrə qalib olan 2 komandamız təmsil edəcək.

Qeyd edək ki, olimpiadanın keçirilməsində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin könüllüləri də yaxından iştirak edib.

Bədii hissədə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri rəqs və musiqi nömrələri ilə çıxış ediblər.



## Gənclərin "Hədəf-2026" təlimi reallaşıb

Naxçıvan Təlim Mərkəzində gənclərin iştirakı ilə "Hədəf-2026" təlimi keçirilib.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordu ilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı əsasında reallaşan təlimdə onlayn qeydiyyatdan keçmiş 40 gənc iştirak edib.

Təlim başlanmazdan öncə nazirliyin şöbə müdiri İlahə Haqverdiyeva tədbirin əhəmiyyətindən danışıb, "Hədəf" və bu cür layihələrin gənclərin hərb peşəsinə marağının yüksəlməsi, onların vətənpərvərlik ruhunda formalaşması, özünümüdafiə və yeni bacarıqlara yiyələnmələri baxımından önəmli rola malik olduğunu diqqətə çatdırıb.

Təhlükəsizlik qaydaları və icra olunacaq tapşırıqlar barədə məlumat verildikdən sonra gənclər təlim nöqtələrinə dəvət olunublar. Bu mərhələdə patronların darağa doldurulması və boşaldılması, silahların texniki xüsusiyyətləri, natamam sökülüb-yığılması, əl qumbaralarından istifadə və digər zəruri proseslər iştirakçılara izah olunub, atəş tapşırığı simulyasiya edilib.

Gənclər əsas mərhələdə müxtəlif çaplı silahlardan 100 metr məsafədən hədəfə doğru atışlar icra ediblər.

Fərqlənən iştirakçılar diploma təltif olunublar.



### Bildiriş

"Naxçıvan Regional Voleybol Mərkəzi" İctimai Birliyi fəaliyyətini dayandırdığından ləğv olunur.

### İtmişdir

Sədərək rayonu, Qaraağac kənd sakini Fərzəliyev Firuz Nəcəf oğlunun adına olan JN-802A nömrəli, 10100028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dəstə kənd sakini Məmmədov Novruzəli Məmmədəli oğlunun adına olan 527 ABC nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhərində yaşamış Rzayeva Nazlı Qara qızının adına olan "Təbriz" küçəsində yerləşən fərdi yaşayış evinə aid 582 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Əliyev İlham Əkbər oğlunun adına olan JN-585A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Əlincə məhəlləsi, bina 4A, mənzil 36 ünvanında yaşayan İsgəndərova Zeynəb Hilal qızının adına olan 9436 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kənd sakini Şükürov Ramiz Göyüş oğlunun adına olan JN-556 nömrəli, 10200028 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa şəhər sakini İmanquliyev Etibar Məhərrəm oğlunun adına olan AA-000787 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Əhmədov Sahib Rəşid oğlunun adına olan JN-225 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Aydınlı Fərahim Eldəniz oğlunun adına olan ehtiyatda olan kapitanın MN-0047464 nömrəli hərbi bileti itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Əbrəqunus kənd sakini Qəhrəmanova Xanım Həzi qızının adına olan JN-119A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Həsənov Rzaqulu Hüseynqulu oğlunun adına olan JN-959 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Abdullayeva Səfiyyə Abbas qızına məxsus JN-404 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kənd sakini Gülmalıyev Oktay Gülmalı oğluna məxsus JN-748A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-19 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunda yaşamış Mirzəyev Əhməd Abbas oğlunun adına olan 458A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 80

Nömrəyə məsul: Rafiq Təhməzov, Səmayə Rəsulova, Əhməd Əhmədov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.